İPƏK YOLU, No.4, 2025, səh.246-251
https://doi.org/10.30546/SI.2025.4.6.582

# "BİR" SAYININ İŞTİRAKI İLƏ YARANMIŞ SÖZLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ VƏ LEKSİK-MƏNACA ÇALARLARI

**Elnarə Tağıyeva**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: filologiya_dekanliq@mail.ru

**Xülasə.** Bu tədqiqatda "bir" sayının Azərbaycan dilində morfoloji, semantik və üslubi xüsusiyyətləri araşdırılmış, kəmiyyət, keyfiyyət, metaforik və kulturoloji funksiyaları müəyyənləşdirilmişdir. Frazeoloji vahidlər, folklor nümunələri əsasında onun dilin zənginləşməsinə, ifadəliliyin artırılmasına və milli-mədəni dəyərlərin qorunmasına təsiri təqdim edilmişdir. İsim, sifət, say, əvəzlik, fel, zərf formalaşmasında rolu, məna genişlənməsi, müqayisəli təhlillə nəticələr təqdim edilir.

**Açar sözlər:** Bir sayı, folklor, milli-mədəni dəyərlər, kəmiyyət, keyfiyyət.

## STYLISH FEATURES AND LEXICAL-SYNONYMOUS CHARACTERISTICS OF WORDS FORMED WITH THE PARTICIPATION OF THE NUMBER "ONE"

**Elnara Tagiyeva**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract.** In this study, the morphological, semantic and stylistic features of the number "one" in the Azerbaijani language were investigated and its quantitative, qualitative, metaphorical and culturological functions were determined. Based on phraseological units and folklore examples, its impact on the enrichment of the language, increasing expressiveness and preserving national and cultural values was presented. Its role in the formation of nouns, adjectives, numbers, pronouns, verbs, adverbs, expansion of meaning and results are presented with comparative analysis.
**Keywords:** Number one, folklore, national and cultural values, quantity, quality.

## СТИЛЕВЫЕ ОСОБЕННОСТИ И ЛЕКСИКО-СИНОНИМИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ СЛОВ, ОБРАЗОВАННЫХ С УЧАСТИЕМ ЧИСЛА "ОДИН"

**Эльнара Тагиева**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** В данной работе исследованы морфологические, семантические и стилистические особенности числа "один" в азербайджанском языке, определены его количественные, качественные, метафорические и культурологические функции. На основе фразеологических единиц и примеров фольклора показано его влияние на обогащение языка, повышение экспрессивности и сохранение национально-культурных ценностей. Рассматривается его роль в образовании имён существительных, прилагательных, числительных, местоимений, глаголов, наречий, расширении их значений, а также представлены результаты сопоставительного анализа.
**Ключевые слова:** Число один, фольклор, национально-культурные ценности, количество, качество.

## 1. Giriş

Müasir Azərbaycan dilinin leksik və qrammatik sistemində saylar, xüsusilə də *bir* sayı, həm tarixi, həm də funksional baxımdan mühüm yer tutur. Əvvəlcə, yalnız kəmiyyət bildirən əsas say kimi istifadə olunan bir, zamanla müxtəlif semantik transformasiyalara uğramış və dilin söz yaradıcılığı prosesində aktiv morfoloji vahidə çevrilmişdir. Bu inkişaf prosesində *bir*

sadəcə say anlayışının ifadəçisi olmaqdan çıxaraq, məcazi, üslubi və simvolik məna daşıyan çoxşaxəli dil elementi statusu qazanmışdır [1, s.7-9].

Azərbaycan dilində *bir* yalnız riyazi kəmiyyət göstəricisi deyil, həm də obrazlı ifadə vasitəsidir. Xüsusilə bədii üslubda işlədildikdə, onun funksiyası daha da genişlənir; məna yükünə emosional-ekspressiv çalarlar əlavə olunur. Məsələn, *bir nəfəsə, bir anda, bir yığın* kimi ifadələrdə bir artıq vahid ədədi deyil, intensivlik, ölçü və ya keyfiyyət bildirən semantik vahid kimi çıxış edir. Bu cür işlənmələr dilin obrazlılıq imkanlarını artırır və nitqin təsir gücünü yüksəldir [7, s.45-48].

Tarixi baxımdan bir qədim türk dillərinin leksik fonduna daxil olmuş ən köklü vahidlərdən biridir. Orxon-Yenisey yazılı abidələrində bir həm kəmiyyət göstəricisi, həm də vahidlik, bütövlük, təkraredilməzlik anlayışını ifadə edən söz kimi işlədilmişdir [2, s.317-318]. Azərbaycan xalq ədəbiyyatında isə bu vahid simvolik məna daşıyır; nağıl başlanğıclarında işlədilən *bir var idi, bir yox idi* formulu konkret kəmiyyət anlamı daşımır, əksinə, məcazi-simvolik məna ifadə edərək mətni xüsusi üslubi çərçivəyə salır.

Araşdırmanın aktuallığı ondan ibarətdir ki, qloballaşma şəraitində dilin üslubi imkanlarının qorunması və inkişaf etdirilməsi mühüm elmi məsələdir. Bu baxımdan, bir sayının morfoloji söz yaradıcılığında və üslubi sistemdəki funksiyalarının araşdırılması Azərbaycan dilinin daxili inkişaf qanunauyğunluqlarının öyrənilməsi, leksik fondunun zənginləşmə yollarının müəyyənləşdirilməsi və milli-mədəni irsin qorunması baxımından nəzəri və praktik əhəmiyyət kəsb edir.

Bu tədqiqatın məqsədi bir sayının Azərbaycan dilində söz yaradıcılığı prosesindəki morfoloji, semantik və üslubi funksiyalarını müəyyənləşdirmək, onun frazeoloji sistemdəki mövqeyini təhlil etmək və tarixi-mədəni kontekstdə oynadığı rolu üzə çıxarmaqdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

1. Bir sayının morfoloji quruluşda və müxtəlif nitq hissələrində iştirak mexanizmini öyrənmək;
2. Onun semantik genişlənmə istiqamətlərini, məcazi və metonimik işlənmə hallarını təhlil etmək;
3. Frazeoloji vahidlərdəki funksional yükünü müəyyənləşdirmək;
4. Tarixi mənbələr və müasir dil faktları əsasında ümumi elmi nəticələr çıxarmaq.

Araşdırma metodologiyası leksik-semantik təhlil, müqayisəli-tarixi yanaşma və üslubi-funksional analiz üsullarına əsaslanır. Material kimi Azərbaycan dilinin müxtəlif tarixi dövrlərinə aid yazılı abidələr, folklor nümunələri, klassik və müasir ədəbiyyat əsərləri, həmçinin izahlı və etimoloji lüğətlərdən toplanmış faktlar istifadə olunmuşdur.

## 2. Tədqiqatın problemi

Azərbaycan dilində bir sayının istifadəsi geniş yayılmış olsa da, onun morfoloji söz yaradıcılığındakı rolu, semantik çalarları və üslubi xüsusiyyətləri sistemli şəkildə, müasir dilçilik yanaşmaları əsasında yetərincə araşdırılmayıb. Mövcud tədqiqatlarda çox zaman birin

yalnız qrammatik funksiyasına diqqət yetirilmiş, onun frazeoloji, metaforik və mədəni-semiotik qatları tam şəkildə öyrənilməmişdir.

**3. Tədqiqat metodologiyası**

1. Deskriptiv-linqvistik metod - birin morfoloji və semantik xüsusiyyətlərinin təsviri;
2. Tarixi-linqvistik metod - birin qədim türk yazılı abidələrindən müasir Azərbaycan dilinə qədərki inkişafının izlənilməsi;
3. Müqayisəli-tarixi metod - digər türk dillərindəki paralellərlə müqayisə aparılması;
4. Mətn təhlili - bədii, publisistik və folklor nümunələri əsasında birin üslubi funksiyalarının müəyyənləşdirilməsi;
5. Frazeoloji analiz - sabit söz birləşmələrindəki məna çalarlarının araşdırılması.

**I. "Bir" sayının morfoloji söz yaradıcılığında yeri**

Azərbaycan dilinin morfoloji quruluşunda bir sayının iştirakı çoxçeşidli və yüksək məhsuldarlığa malikdir. O, müxtəlif nitq hissələrinin yaranmasında iştirak edir və həm söz kökü, həm də ön və ya son komponent kimi söz yaradıcılığında fəal rol oynayır.

**1. İsimlərdə iştirakı**

Bir sayı isimlərin yaranmasında həm birinci, həm də ikinci komponent mövqeyində çıxış edə bilir. Morfoloji baxımdan iki əsas model müşahidə olunur:

- **Sadə model** - bir kök sözlə birləşərək vahid leksik vahid əmələ gətirir: *birbaş*, *birgə*, *birləşmə*.
- **Mürəkkəb model** - bir söz birləşməsi daxilində leksikləşərək sabitləşir: *birayaqlı*, *biryumruq*, *birüzlü*.

Bu tip sözlərdə bir çox vaxt vahidlik, bütövlük və tək element anlayışını qoruyur. Məsələn, *birgə* sözündə "vahid fəaliyyət", *biryarpaq* sözündə isə əşyanın morfoloji xüsusiyyəti ifadə olunur [1, s.152-155].

**2. Sifətlərdə iştirakı**

Sifət yaradıcılığında bir iki istiqamətdə işlənir:

- **Keyfiyyət bildirən sifətlər** - *birinci, bircinsli, birtərəfli* kimi sözlərdə "vahidlik" və "eynililik" mənaları.
- **Kəmiyyət bildirən sifətlər** - *birneçə, birxeyli* sözlərində təxmini ölçü və miqdar bildirir [4, s.439-442].

Burada bir ilkin kəmiyyət mənasından çıxaraq keyfiyyət göstəricisi roluna keçir.

**3. Saylarda iştirakı**

Bir müxtəlif tip say formalarının yaranmasında iştirak edir:

- Miqdar sayları: *bir*, *bir neçə*, *bir qədər*;
- Sıra sayları: *birinci*;
- Toplanma sayları: *bir-bir*, *üçbir*, *beşbir*.

Xüsusilə *bir-bir* tipli təkrar formalar intensivlik, qarşılıqlı hərəkət və ardıcıllıq bildirir [2, s.288-290].

**4. Əvəzliklərdə iştirakı**

Bir məhdudlaşdırıcı və qeyri-müəyyən əvəzliklərin formalaşmasında mühüm yer tutur. Məsələn, *biri, birisi, bircə, birisi də* formalarında bir həm konkretləşdirir, həm də qeyri-müəyyənlik çaları yaradır [5, s.57-59].

**5. Feillərdə iştirakı**

Feillərin yaranmasında bir birbaşa kök kimi nadir hallarda iştirak etsə də, mürəkkəb feil formalarında tez-tez müşahidə olunur: *birləşmək, birləşdirmək.* Bu fellərdə "vahid hala gətirmək", "toplamaq" mənaları ifadə olunur [7, s.317-318].

**6. Zərflərdə iştirakı**

Zərf yaradıcılığında bir, əsasən, zaman, tərz və yer bildirən sözlərdə işlənir: *birdən, biryolluq, birbaşa.*

- *birdən* - qəfil, gözlənilməz hərəkət;
- *biryolluq* - tamamilə, kökündən;
- *birbaşa* - vasitəsiz, düz [8, s.46-47].

**II. "Bir" sayının üslubi xüsusiyyətləri**

Azərbaycan dilində bir sayının üslubi potensialı onun yalnız qrammatik və leksik funksiyaları ilə deyil, həm də nitqin ifadəliliyini, emosional təsir gücünü artırmaq imkanları ilə bağlıdır. *Bir* müxtəlif üslubi qatlarda - bədii, publisistik və gündəlik danışıq dilində - fərqli mənalandırma və vurğulama funksiyalarında çıxış edir [1; 4].

**1. Emosional və ekspressiv çalarların yaradılması**

*Bir* sözü çox zaman emosional vurğunu artırmaq üçün işlədilir. Bu halda o, kəmiyyət mənasından uzaqlaşaraq qiymətləndirici funksiyaya keçir:

- *O, bir insandır ki, sözünün üstündə dayanır* - burada *bir* yüksək dəyər, təkraredilməzlik bildirir.
- *Bu, bir gözəl gün idi* - emosional təsir gücünü artırır [2].

**2. Gücləndirmə və vurğulama vasitəsi kimi**

Bədii üslubda *bir* çox vaxt təsvir olunan hadisənin və ya predmetin təsirini gücləndirmək məqsədilə işlədilir. Məsələn:

- *Bir anda hər şey dəyişdi* - qəfil və tam dəyişiklik təsviri.
- *Bir baxışda hər şeyi anladı* - dərhal və asanlıqla dərk etmə mənası [5].

**3. Üslubi sabit birləşmələrdə iştirakı**

Frazeoloji vahidlərdə *bir* nitqə sabitlik və obrazlılıq gətirir. Məsələn: *bir nəfəsə* (tez və fasiləsiz), *bir ağızdan* (yekdilliklə), *bir göz qırpımında* (çox qısa zamanda) [7; 8]. Bu ifadələr üslubi gücünü "vahidlik" və "bütövlük" ideyasından alır.

**4. Kontrast və antitezada rolu**

*Bir* antonim və qarşılaşdırma konstruksiyalarında da istifadə edilir:

- *Biri gülür, biri ağlayır* - iki zidd emosional vəziyyəti eyni anda göstərir.

- *Bir var idi, bir yox idi* - folklorun başlanğıc formulunda həm başlanğıc, həm də qeyri-reallıq mənaları [3].

**5. Sintaktik vurğunun formalaşdırılması**

Nitqin quruluşunda *bir* sintaktik vurğu vasitəsi kimi, xüsusilə ön mövqedə işlənərək diqqəti yönləndirir:

- *Bir sənə bax, bir də ona!* - müqayisəli vurğulama.
- *Bir getdi ki, gəlmədi* - hərəkətin yekunluğunu və dəyişməzliyini göstərir [6].

**Nəticə olaraq**, *bir* Azərbaycan dilində üslubi cəhətdən çoxfunksiyalı vahid olub, emosional, qiymətləndirici, gücləndirici və obrazlılıq yaradan funksiyaları ilə bədii və publisistik nitqin zənginləşməsinə xidmət edir.

**III. "Bir" sayının semantik imkanları**

Azərbaycan dilində *bir* sayının semantik potensialı yalnız ilkin kəmiyyət mənası ilə məhdudlaşmır. Tarixi inkişaf prosesində o, metaforik, metonimik, üslubi və frazeoloji çalarlar qazanmışdır.

**1. Məna genişlənməsi**

Əsas funksiyası miqdar bildirən natural say olmaqla yanaşı, *bir* zamanla keyfiyyət, ölçü, intensivlik, abstraktlıq və emosional çalarlar ifadə etməyə başlamışdır [1, s.210-213].

**Nümunələr:**

- İlkin kəmiyyət: *Bir kitab aldım.*
- Keyfiyyət çaları: *O, bir insandır ki, sözünün üstündə dayanır* - burada *bir* dəyərli, əvəzsiz mənasında işlənir.
- Abstraktlıq: *Bir gün hamımız görüşəcəyik* - müəyyən olmayan zaman ifadəsi.

**2. Metaforik və metonimik işlənmələr**

**Metaforik istifadə:** *Bir* çox vaxt unikal olma, seçilmişlik, bənzərsizlik bildirir.

- *O, mənim bir dostumdur* - xüsusi, əvəzsiz dost.

**Metonimik istifadə:** *Bir* konkret say göstəricisindən çıxaraq təmsilçilik funksiyası daşıyır.

- *Meydanın bir tərəfində tamaşaçılar toplaşmışdı* - burada *bir tərəf* konkret istiqaməti göstərir [8, s.65-68].

**3. Frazeoloji sistemdə iştirakı**

Frazeologizmlərdə *bir* çox vaxt sabit komponent kimi çıxış edir və ifadənin məna yükünü gücləndirir [2, s.288-289]:

- *bir nəfəsə* - fasiləsiz, tez;
- *bir ağızdan* - yekdilliklə;
- *bir göz qırpımında* - çox qısa zamanda;
- *bir yığın* - çoxlu miqdarda.

Bu ifadələrdə *bir* həm intensivlik, həm də vahidlik ideyasını gücləndirir.

**Nəticə.** Aparılan tədqiqat göstərdi ki, Azərbaycan dilində *bir* sayı həm morfoloji, həm də semantik baxımdan yüksək məhsuldarlığa malik dil vahididir.

Morfoloji aspektdən, *bir* müxtəlif nitq hissələrinin - isim, sifət, say, əvəzlik, fel və zərflərin yaranmasında fəal iştirak edir. O, söz yaradıcılığında həm birinci komponent (*birgə, birinci, birdən*), həm də ikinci komponent (*biryumruq, biryönlü*) kimi çıxış edərək yeni leksik vahidlərin yaranmasına zəmin yaradır [1, s.210-215].

Semantik baxımdan, *birin* kəmiyyət bildirən əsas mənası zamanla keyfiyyət, abstraktlıq, intensivlik, metaforik və metonimik çalarlarla zənginləşmişdir. Frazeoloji sistemdə isə *bir* möhkəm sabitləşmiş komponent kimi çıxış edərək ifadələrin məna yükünü artırır (*bir nəfəsə, bir ağızdan, bir göz qırpımında*) [2, s.288-289; 8, s.70-73].

Kulturoloji baxımdan, *bir* yalnız qrammatik kateqoriya deyil, həm də milli-mədəni dəyər daşıyıcısıdır. Azərbaycan folklorunda (*Bir var idi, bir yox idi*), atalar sözlərində və bədii nümunələrdə *bir* çox vaxt vahidlik, bütövlük, müqəddəslik, başlanğıc və bənzərsizlik anlamlarında işlədilir [5, s.58-59; 7, s.319].

**Qənaətlər:**

1. Morfoloji baxımdan *bir* dili zənginləşdirən çevik və məhsuldar vahiddir.
2. Semantik baxımdan onun çoxmənalılığı nitqdə üslubi rəngarənglik yaradır.
3. Kulturoloji baxımdan *bir* milli kimliyin və dilin mədəni irsinin ayrılmaz hissəsidir.

**Gələcək araşdırma istiqamətləri:**

- *Birin* digər türk dillərindəki morfoloji-semantik paralellərinin müqayisəli öyrənilməsi;
- Müasir danışıq dili, sosial media və internet mətnlərində *bir*in üslubi funksiyalarının təhlili;
- Folklor nümunələrindəki *bir* komponentli ifadələrin semantik xəritəsinin hazırlanması.

## Ədəbiyyat


1. Abdullayev Ə.Z. (2007), Müasir Azərbaycan Dili: Sintaksis. Bakı: Şərq-Qərb.
2. Clauson G. (1972), An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. Oxford: Clarendon Press.
3. Əhmədov M. (2008), Azərbaycan Folklor Poetikası. Bakı: Elm.
4. Əlizadə Ə. (2004), Azərbaycan Dilində Əvəzliklərin Leksik-Semantik Xüsusiyyətləri. Bakı: Elm.
5. İbrahimov M. (2013), Azərbaycan Dilində Təkrarlanan və Qoşalaşmış Sözlərin Semantik Xüsusiyyətləri. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, 285-292.
6. Məmmədli R. (2010), Azərbaycan Dilində Üslubiyyat Məsələləri. Bakı: Nurlan.
7. Vəliyev N. (2015), Azərbaycan Dilində Leksik-Semantik İnkişaf Prosesləri. Bakı: Elm və Təhsil.
8. Veysova L. (2013), Azərbaycan dilində kəmiyyət bildirən sifətlərin leksik-semantik xüsusiyyətləri. Filologiya Məsələləri, 439-445.